

və əvəzolunmaz nailiyyətləri sayəsində qazanılıb və yaxud əldə edilib. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bu illər ərzində fenomenal zəkası, siyasi və iqtisadi sahələrdə möhtəşəm fəaliyyəti ilə keçmiş Sovetlər birliyində respublikanı birincilər səviyyəsinə qaldırıb.

Xalqının xilaskar oğlu Heydər Əliyevin

# Tarix yaradan şəxsiyyət

## Xalqımız öz xilaskarını heç zaman unutmayacaq

**Azərbaycan xalqının böyük oğlu, ulu öndər və dahi şəxsiyyət Heydər Əlirza oğlu Əliyev artıq 18 ildir ki, aramızda yoxdur. 12 dekabr tarixi müasir dövlətçiliyimizin banisi, ümummilli liderimiz Heydər Əliyevin həyatla cismani vidalaşdığı gündür.**

Onun fiziki yoxluğundan neçə illər ötməsinə baxmayaraq Azərbaycan xalqı öz xilaskarını heç zaman unutmur, daim onu böyük ehtiramla yad edir. Tək 12 dekabr günündə deyil, adi vaxtlarda da, insanlar Fəxri Xiyabana gedərək ulu öndərin məzarını yad edir və onun ruhu qarşısında baş əyirlər. Ulu öndərin əbədiləşən ömür yolunu düşünəndə insan əmin olur ki, ömrünü xalqına, vətəninə həsr edən, milləti, dövləti üçün misilsiz xidmətlər göstərən rəhbərlər heç zaman unudula bilməz. Azərbaycan tarixini yaradan dahi şəxsiyyətlər sırasında özünəməxsus və əvəzedilməz rolu olan Heydər Əliyev canından artıq sevdiyi vətəninin və xalqının əbədi olaraq milli lideri kimi qalacaqdır.

Heydər Əliyevin Azərbaycan xalqı qarşısında böyük xidmətlərindən danışanda və söhbət açanda, öncə 1969-1982-ci illərə, onun Sovetlər birliyi dövründə respublikamıza rəhbərlik etdiyi vaxtlara nəzər yetirmək vacibdir, çünki onun Azərbaycana rəhbərliyi ölkəmizin tarixində əsaslı dönüş nöqtəsi olub və respublikada sürətli inkişaf dövrü başlayıb. Bəli, bu inkişaf dövründə qazanılan qələbələr ulu öndərimiz Heydər Əliyevin möhtəşəm fəaliyyəti

2-ci hakimiyyət dövrü isə müstəqillik qazandığımız çox çətin və mürəkkəb illərə təsadüf etmişdi. Bu dövrdə ölkədə mərkəzi hakimiyyət zəifləmişdi, xaos və özbaşınalıq hökm sürürdü. İqtisadi və siyasi tənəzzül, hərcmərclik, anarxiya baş alıb gedirdi. Azərbaycan vətəndaş müharibəsi və qardaş qırğını ərəfəsində idi. Hər an baş verə biləcək bu faciədən xalqı yalnız Heydər Əliyev dühası xilas edə bilərdi və etdi də. Onun vətəninə möhtəşəm qayıdışı ilə Azərbaycan bu faciədən xilas olaraq böyük dirçəliş və inkişaf yoluna qədəm qoydu. İlk gündən müdrik rəhbər xalqa arxalandı. Xalq da ona dəstək verdi. Və öz xilaskar oğlunun ətrafında həmrəylik göstərib sıx birləşdi. Bu gün Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevin ətrafında sıx birlik nümayiş etdirən xalqımız əmindir ki, əsası Ulu öndər Heydər Əliyev tərəfindən yaradılan müstəqil dövlətimizin inkişafı etibarlı əllərdədir. Bu əminliyi Prezident İlham Heydər oğlu Əliyev öz mükəmməl siyasi, iqtisadi fəaliyyəti və düşmən üzərində dəmir yumruqla çaldığı böyük tarixi qələbəsi ilə atasına layiq oğul kimi bir daha təsdiq etdi.

Azərbaycan xalqı var olduqca Heydər Əliyevin şanlı ömür yolu və böyük həyat salnaməsi hər bir azərbaycanlının qəlbində böyük məhəbbət, hörmət və ehtiramla yaşayacaqdır.

**Əsgərova Qənirə,**
**ADPU-nun nəzdində ADPK-nın dil və ədəbiyyat müəllimi**

Şərq.-15 dekabr.- 2021- ci il.- S. 6.